***Səttar Mahmudoğlu 1976-cı ildə Təbrizdə dünyaya göz açıb. Ədəbiyyatımıza, incəsənətimizə, milli musiqimizə, özəlliklə də muğamata maraq göstərib. Güney Azərbaycanın milli mucadiləsində sözünü demiş ustad Həsən ağa Dəmirçinin şagirdi kimi milli musiqimizin sirlərini öyrənmiş, İsveçdə, Norveçdə və başqa ölkələrdə ustadı ilə bərabər musiqi sənətimizi təbliğ etmişdir. Musiqiylə yanaşı, ədəbiyyatımızın incəliklərini dərindən öyrənmiş, bir sıra dərgilərdə şeirləri, məqalə və müsahibələri işıq üzü görmüşdür. Respublikamızın tanınmış ədəbi simalarını Güney Azərbaycanın oxucularına tanıtmışdır. Səttar Mahmudoğlunun bir neçə şeirini "Kaspi" qəzetinin dəyərli oxucularına təqdim edirəm.***

***Ramiz Qusarçaylı***



Səttar Mahmudoğlu

## O QIZ MƏNİ BAĞIŞLAMAZ

Qəlbinə dəydim bilmədən
O qız məni bağışlamaz.
Elə bilir ki, sevmədim
O qız məni bağışlamaz.

İtirmişəm bilə-bilə
Ağlar qaldım gülə-gülə
Bu da bir taleymiş belə
O qız məni bağışlamaz.

Telindən bir çiçək asa,
Batmasın bu ürək yasa,
Allah məni bağışlasa
O qız məni bağışlamaz.

## BİZ UĞURSUZ EŞQİN QURBANLARIYIQ

Nə sən birincisən, nə mən sonuncu,
Biz uğursuz eşqin qurbanlarıyıq.
Bu alın yazımız, - nə küs, nə inci,
Biz uğursuz eşqin qurbanlarıyıq.

Ömür-gündən bircə anın oğrusu,
Ötüb keçməz sevdamızın sorğusu,
Əl çatmayan məhəbbətin ağrısı
Biz uğursuz eşqin qurbanlarıyıq.

Qara saçın doğmam idi, indi yad,
Ay gecikən bu hissimi az oyat,
Əl-ətəyəm ürəyimlə, onu at
Biz uğursuz eşqin qurbanlarıyıq.

Nəfəsimin titrəməsi yadında,
Çəkilməyən min bir naz var adında,
Kül olmuşam, alışdırmaz odun da
Biz uğursuz eşqin qurbanlarıyıq.

Qismət olduq hərəmiz bir ünvana,
Paralanıb ürəyimiz hər yana,
Nə deyim, evimdə olmadın ana
Biz uğursuz eşqin qurbanlarıyıq.

Saçlarına yad əlləri toxunur,
Titrək ürəyimə yazdım qoxunu,
Bizim taleyimiz belə oxunur
Biz uğursuz eşqin qurbanlarıyıq.

Bu gizlənpaç oyununu saxlayaq,
Ürəyimiz nə deyirsə baxmayaq,
Sən evində, mən evimdə ağlayaq
Biz uğursuz eşqin qurbanlarıyıq.

## İLK MƏHƏBBƏTİM

Ya tale, ya qismət, - adını bilsəm,
Bu gün yolum üstə gördüm o qızı.
Əlimdə tutmuşdum qızımın əlin
Kim arzuya çatıb, kimi tamarzı...

Hələ o həyəcan, hələ o istək,
İlk sevgi önündə qalarsan çaşbaş.
"Taleyin qisməti rast saldı bizi",-
Deyib acı-acı çatılarmış qaş.

Sükuta bürünər bax, ilk məhəbbət,
Lal baxış... həsrətin gözünü sıxdım.
Qayıtmaq istədim, o ilk sevgiyə
Yıxılmış dünyamla birgə yıxıldım..

Ayaqlanmış, yetim sevgi üstündən,
Bir daha bu yollar keçirdi bizi.
Ögey, qarşılıqsız, bitən sevginin
Nə tozu qalarmış, nə də ki izi...

Yalan daşlarıyla dağılsa belə,
Talanmış, ünvansız o ilk qismətim.
Həyat yollarımda qarşıma çıxıb
Nurunu yağdırıb son məhəbbətim.

Kaspi.-2017.-22-24 aprel.-S.22.